**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**LALƏ ELDAR QIZI ATAKAN**

# XX ƏSRİN ƏDƏBİ-MƏDƏNİ MƏNZƏRƏSİNİN QAVRAYIŞINDA MUZEY ŞƏXSİ ARXİVLƏRİNİN ROLU

**6220.01 − Muzeyşünaslıq**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2016**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Mədəni irs və mənbəşünaslıq" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Rafael Baba oğlu Hüseynov**<br>Akademik, filologiya üzrə<br>elmlər doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Röya Seyfəddin qızı Tağıyeva**<br>Əməkdar incəsənət xadimi, professor |
| | **Elfira Hacıbaba qızı Məlikova**<br>Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyi** |

Dissertasiyanın müdafiəsi "____" __________ 2016-cı il saat ___da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin FD.02.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1100, Bakı, Həsən bəy Zərdabi 39A, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"________________ 2016-cı ildə göndərilmişdir.

FD.02.091 Dissertasiya Şurasının
elmi katibi, kulturologiya üzrə
fəlsəfə doktoru, dosent: **F.R.Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** "XX əsrin ədəbi-mədəni mənzərəsinin qavrayışında muzey şəxsi arxivlərinin rolu" mövzusu Azərbaycan mədəniyyət tarixinin ən qaynar dövrlərindən birini əhatə edir və bu istiqamətdə xüsusi tədqiqat tələb edən mövzudur. Mövzunun əks etdirdiyi dövr mürəkkəb və ziddiyyətlidir. Bu dövrün ictimai-siyasi və ədəbi-mədəni mənzərəsi bu gün də lazımınca və obyektiv şəkildə araşdırılmamışdır.

XX əsr Azərbaycan mədəniyyətində üç sahənin – bəstəkarlıq sənəti, vokal mədəniyyəti və teatr məktəbinin professional səviyyəyə çatma illəridir. Bu sənət növlərinin hər biri bir dahinin – Müslüm Maqomayevin, Bülbülün və Aleksandr Tuqanovun yaradıcı həyatı ilə paralel inkişaf etmişdir. Tədqiqat işinin predmetini həmin şəxslərin mühafizə vahidi ilə zəngin şəxsi arxivləri təşkil edir.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" 13 iyun 1998-ci il tarixli Azərbaycan Respublikasının Qanununda verilmiş abidələrin təsnifatına görə, arxivlər də rəsmi dövlət orqanlarının aktları, qədim əlyazmaları, nadir çap əsərləri foto, fono arxivlər kimi sənədli abidələrə daxildir.[1]

Yuxarıda sadalanan elmi məlumatlar cəmləşdirilərkən qarşımızda indiyədək işlənməmiş, dövlət muzey fonduna daxil olan, XX əsrin real mənzərəsinin dərki üçün orijinal muzey əşyalarından ibarət Müslüm Maqomayevin, Bülbülün, Aleksandr Tuqanovun AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Bülbülün Memorial Muzeyinin fondunda qorunan şəxsi arxivlərinin rolu danılmazdır.

Mövzunun aktuallığı arxiv qovluqlarında bağlı qalmış zəngin muzey külliyatının tədqiqata cəlb edilməsində və bu vasitə ilə dövrün real mənzərəsinin işıqlandırılmasıdır.

**Dissertasiya probleminin öyrənilmə dərəcəsi.** Dissertasiya mövzusunun ayrıca tədqiqat obyekti kimi işlənilməmiş olması bu haqda daha da dərin və xüsusi araşdırmanı zəruri edir. Problemin tarix, kulturologiya, sənətşünaslıq, arxivşünaslıq və muzeyşünaslıq elmləri baxımından aktuallığı onun xüsusi tədqiqat obyekti kimi elmi əsasını təsdiqləyir. XX əsrin ədəbi-mədəni mənzərəsi haqqında mədəniyyətin ayrı-ayrı sahələrində tədqiqatlar aparılmışdır. O cümlədən, hər üç dahi şəxsiyyətin yaradıcılıq irsi musiqişünaslıq və teatrşünaslıq elmlərinin obyekti kimi araşdırılmışdır.

---

[1] Eyvazova Y. Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı. Bakı, "Mars Print", 2010, s.141.

Lakin şəxsi arxivlərin məhz muzeyşünaslıq elmi kontekstində araşdırılması ilə XX əsrin ədəbi-mədəni mənzərəsinin real təsviri verilməmişdir. Məsələn, akademik Rafael Hüseynovun həmin arxiv materialları əsasında genişhəcmli monoqrafiya və elmi məqalələri vardır, lakin tədqiqatlar tam başqa xarakterli olduğundan alınan nəticələr də fərqli olmuşdur.[1]

**Dissertasiyanın məqsəd və vəzifələri.**

1. XX əsrin real qavranılmasında muzey və arxiv işinin əhəmiyyətini vurğulamaq;

2. XX əsrin ədəbi-mədəni mənzərəsini konkret faktlar və sənədlər əsasında təhlil edib üzə çıxarmaq;

3. Sənəddən və faktlardan kənar, sübuta əsaslanmayan fikrin yalnız əfsanə və fərziyə olduğu fikrindən çıxış edərək kompleks araşdırma aparmaq;

4. Mövzu ilə əlaqədar əsas faktları, bəhs edilən dövrün həqiqətlərini həmin dövrdə yaşamış və tarixdə əbədi qalmış şəxsiyyətlərin muzey saxlanclarında, fondlarında qorunan şəxsi arxiv materialları əsasında aşkarlamaq.

Həmin şəxsi arxivlərin rolunu və malik olduğu çox ümdə bilikləri araşdırıb təhlil etməzdən, nəticələri ümumiləşdirməzdən əvvəl qarşımızda aşağıdakı vəzifələri qoyuruq:

1. XX əsrin I yarısında Azərbaycanda mövcud olmuş ictimai-siyasi şərait və mədəni vəziyyəti dəyərləndirmək;

2. XX əsrin I yarısında Azərbaycanda mədəniyyət xadimlərinin ölkənin sosial həyatındakı rolunu nəzərə çatdırmaq;

3. Mədəniyyətin inkişafda olan sahələri olan bəstəkarlıq, opera sənəti, ifaçılıq, teatr mədəniyyətinin proqress səbəblərinin rüşeymlərini araşdırmaq;

4. Müslüm Maqomayevin arxiv sənədlərini mövzu ətrafında təhlil etmək;

5. Maestro Bülbülün ev-muzeyində saxlanılan şəxsi arxivinin dövrün mənzərəsini özündə əks etdirən sənədlərini üzə çıxarmaq;

6. XX əsrdə Azərbaycan teatrının professionalıq dövrünə qədəm basması mərhələsində A.A.Tuqanovun rolunu araşdırmaq;

7. Problemlə əlaqədar dövrün mətbuatına ümumi baxış keçirmək.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat Azərbaycan mədəniyyəti tarixində bütün cəhətləri ilə fərqli bir dövrün – XX əsrin ədəbi-mədəni mənzərəsinin məhz muzeydə yerləşən şəxsi arxivlərin rolu ilə müəyyən edilməsi sahəsində ilk dissertasiyadır. Dissertasiyanın elmi yeniliyi

---

[1] Hüseynov R. Xəzinə. Bakı, 2006. 184 səh.; Hüseynov R. Millətin zərrəsi. Bakı, Azərnəşr, 2001. 720 səh.; Hüseynov R. Onların gördüyü Müslüm. "Qobustan". 1985 №3.

Azərbaycanda yerləşən bir sıra muzey arxivlərindən qaynaqlanan aşağıdakı müddəaların həlli ilə bağlıdır:

1. Dissertasiya XX əsr Azərbaycan mədəni mühitinin xüsusiyyətlərini muzey şəxsi arxivlərinin tədqiqi ilə üzə çıxarır;

2. Üç yaradıcı şəxsin – Müslüm Maqomayevin, Bülbülün, Aleksandr Tuqanovun muzeylərdə qorunan arxiv materialları əsasında dövr və sənət münasibətləri muzeyşünaslıq kontekstində aydınlaşdırılır;

3. Arxivdə saxlanılan dövrü mətbuat nümunələrində dərc edilən yazılar və resenziyalar vasitəsilə XX əsrə və bilavasitə mədəniyyət tariximizə damğa vuran yeni əsərlərin müsbət və mənfi tərəfləri qarşılaşdırılaraq müqayisəli təhlil edilir;

4. XX əsrin I yarısında yaşayıb yaradan ziyalı təbəqənin mədəniyyətin mürəkkəb ideoloji mahiyyətinin formalaşdırılmasındakı tənzimləyici fəaliyyətləri dəyərləndirilir;

5. Ciddi siyasi senzura şəraitində Azərbaycan Sovet mətbuatında mədəniyyət və ideoloji mühitlə bağlı əksini tapmayan məqamların sənətkarların şəxsi arxiv materialları əsasında yaranan real mənzərəsinin başlıca parametrləri qeyd edilir.

**Tədqiqatın metodu və mənbələri.** Dissertasiya işinin yazılmasında tarixi-müqayisəli, deduktiv induktiv və aksioloji metodlardan istifadə edilmişdir. Mənbəşünaslıq bazasını problemlə əlaqədar istifadə edilmiş ədəbiyyatda qeyd edilən monoqrafiyalar, müxtəlif muzey nəşrləri, muzeydə yerləşən şəxsi arxiv materialları, dövrü mətbuatda dərc edilmiş məqalələr təşkil edilir. Mövzunun obyekti ilə əlaqədar və işlənmə dərəcəsinin vəziyyətinə görə üstünlük muzeydə mühafizə edilən şəxsi arxiv materiallarına verilmişdir.

**Dissertasiyanın nəzəri-praktik əhəmiyyəti.** Dissertasiyadan həm muzeyşünaslıq sahəsinin, həm arxiv işinin araşdırıcıları, həm də arxivi işlənilən şəxsiyyətlərin tədqiqatçıları istifadə edə bilərlər.

**Tədqiqatın aprobasiyası.** Bu tədqiqat işinin hazırlanması Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Mədəni irs və mənbəşünaslıq şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu**. Tədqiqat işi giriş, üç fəsil və nəticədən ibarətdir. Tədqiqatın sonunda Azərbaycan dilində və xarici dillərdə istifadə edilmiş ədəbiyyatın siyahısı verilmişdir.

# İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş"ində mövzunun aktuallığı, dissertasiya probleminin öyrənilmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, metod və mənbələri, nəzəri-praktik əhəmiyyəti və s. əsaslandırılır. Arxivi işlənilən şəxsiyyətlərin fəaliyyət sahəsi müxtəlif olduğundan hər fəslə ayrıca giriş verilir.

Dissertasiya işinin I fəsli **"Müslüm Maqomayevin şəxsi arxivi XX əsr mədəni-ictimai gerçəkliyi kontekstində"** adlanır. Bu fəsil muzey və arxiv işinin əhəmiyyətinə və dahi bəstəkar Müslüm Maqomayevin şəxsi arxivinin qeyd edilən aspektdən tədqiqi və təhlilinə həsr edilmişdir.

Müslüm Maqomayevin ev muzeyi olmadığından, şəxsi arxiv fondu ənənələrə əsasən onun evində yox, muzey tipli müəssisə olan M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivində saxlanılır. "Bu bina XX əsrin ən vacib təhsil ocaqlarından biri olan, Hacı Zeynalabdin Tağıyevin Həsən bəy Zərdabinin dövlət tərəfindən rədd edilən təklifindən sonra tikdirdiyi, Qızlar məktəbi idi".[1] Hazırda bu binada Hüseyn Cavidin ev muzeyi və M.Füzuli adına Əlyazmalar İnstitutu yerləşir.

Müslüm Maqomayevin şəxsi arxivi buraya hissə-hissə 1968, 1974 və 1990-cı illərdə daxil olmuşdur. Bu arxivdə yerləşdirilən hər bir sənəd XX əsr Azərbaycanında bəstəkarlıq tarixini, ifaçılıq məktəbini, aktyorluq sənətini, teatr məktəbini öyrənmək üçün əvəzedilməz xəzinədir. Arxivindəki yazışmalar, xatirələr, resenziyalar, onun dəfələrlə üzərində işlədiyi notları, hələ Lənkəranda ikən topladığı folklor nümunələri, M.S.Ordubadinin sözlərinə bəstələdiyi mahnıları, tənqidi fikirləri bizə dövrlə bağlı zəngin məlumatlar təqdim edir.

AMEA Əlyazmalar İnstitutunda olan arxiv sənədlərindən əlavə yuz otuz mindən artıq muzey əşyasının saxlanıldığı Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin fondları milli teatrın yaranma tarixini, inkişaf yollarını, teatr korifeylərimizin həyat və yaradıcılığını, o cümlədən Müslüm Maqomayevin yaradıcılığını, onun operalarına yazılmış resenziyaları və bilavasitə Müslüm Maqomayevin mətbuatda dərc olunan məqalələrini özündə əks etdirir. "Muzeydə üç fond – arxiv-memuar, eskiz-maket, foto-neqativ fondları, iki şöbə – fonetika, ekspozisiya kütləvi şöbələri, bir kitabxana və foto-laboratoriya fəaliyyət göstərir. Arxiv-memuar fondunda müxtəlif tamaşaların nadir proqram və afişaları, əlyazmalar, rol dəftərləri, məktublar, rejissor eksplikasiyaları, teatr

---

[1] Rəhimzadə M. Əsrdən uzun yol. "Azərbaycan" qəzeti. 20 may 2009-cu il, s.6.

kostyumları, rekvizitlər, şəxsi əşyalar və sair şəxsi arxivlərdə cəmlənərək qorunur" (http://teatrmuzeyi.musigi-dunya.az/az/melumat.html).

Birinci yarımfəsil **"Dövrün real qavrayışında muzey və arxiv işinin əhəmiyyəti"** adlanır. Təsadüfi deyildir ki, Azərbaycanda muzey mədəniyyətinin formalaşması da məhz XX əsrin əvvəllərindən başlanılmışdır. Hər bir muzeyin dövlət arxiv fondunun tərkib hissəsi kimi qiymətləndirilən zəngin fondları vardır. Muzeyşünaslıq elminin gələcək inkişafı muzeylərin fondunda toplanmış zəngin materiallar üzərində tədqiqat aparılması, öyrənilməsi və təbliğatı ilə bağlıdır. Muzey şəxsi arxivlərinin öyrənilməsi də özündə muzey və arxiv işinin nəzəri əsaslarının tətbiqini birləşdirir. Tədqiqat obyekti olan hər üç dahi şəxsiyyətin arxivi arxivşünaslıq nəzəriyyəsində öz əksini tapmış prinsiplər əsasında həyata keçirilmişdir. "Arxivşünaslığın elmi prinsiplərinə: tarixilik, hərtərəflilik, kompleks qiymətləndirmə, sosial-siyasi neytrallıq prinsipləri daxildir".[1]

Digər mədəniyyət müəssisələri kimi, muzey də asudə vaxtın təşkilini təmin edən məkanlardan biridir, lakin muzeyləri digər müəssisələrdən fərqləndirən ən başlıca xüsusiyyət elmi-tədqiqatçılıq fəaliyyətinin ön planda olmasıdır. Tarixən formalaşan muzey nəzəriyyəsində də muzey fəaliyyətinin müstəqil istiqamətini təşkil edən elmi fond işi muzey toplularının və kolleksiyalarının formalaşdırılmasını təmin edən əsas fəaliyyətdir. "Muzey toplusu – muzeydə mühafizə olunan uçot, mühafizə, öyrənilmə standartlarına uyğun olaraq elmi cəhətdən təşkil olunan muzey əşyaları, elmi-köməkçi materiallar və elmi-informasiya təminat vasitələrinin məcmusudur. Topluların tərkibinə muzeyin fondları, kitabxana və arxivi daxildir".[2]

XIX əsrin ikinci yarısından bu günə qədər inkişafda olan muzeyşünaslıq elminin nəzəriyyəsi muzey fondlarında elmi-tədqiqat işlərinin aparılmasının davamlılığını tələb edir. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Elfira Qurbanovanın müəllifi olduğu, muzeydə elmi-tədqiqat işinin təşkilinə dair dərslik bu istiqamətdə zəngin biliklərin məcmusudur.[3]

İkinci yarımfəsil **"XX əsrin birinci yarısı Azərbaycanın mədəni gerçəkliyi və Müslüm Maqomayev"** adlanır. Məlumdur ki, zəngin tarixi, siyasi, dövlətçilik ənənələrinə malik Azərbaycanın qərb normalarına əsaslanan müasir mədəniyyətinin təməli XIX əsrin sonu – XX əsrin əvvəllərində qoyulmuşdur. Burada rol oynayan ən mühüm amillərə − 1979-cu ildə Azərbaycan şöbəsinin təsis edildiyi Qori Müəllimlər Seminariyasının,

---

[1] Səfərova İ. Arxivşünaslıq. Dərslik. Bakı, 2015, s.9.

[2] Allahverdiyeva A. Muzey fondları. Bakı, "Masr Print", 2010, s.22.

[3] Qurbanova E., Əlizadə A. Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası. Bakı, "Təknur", 2011. 271 səh.

başda Müslüm Maqomayev olmaqla seminariyanın məzunlarının, 1906-cı ildə maarifçiliyi genişləndirmək məqsədilə Bakıda yaradılan “Nicat” cəmiyyətinin fəaliyyətinə yer verilmişdir.

Cəmiyyətin fəaliyyətində atdığı uğurlu addımlardan biri də teatr truppası yaratmaq olub. "Nicat" teatr truppası 1906-cı ilin 6 noyabrında Tağıyev teatrında Nikolay Qoqolun "Müfəttiş" komediyasının tamaşası ilə fəaliyyətə başlayaraq, milli teatr sənətinin inkişafında və tərəqqisində, peşəkar aktyorluq sənətinin formalaşmasında böyük işlər görüb.[1]

“Баку” qəzetinin 5 fevral 28-ci sayında yazılıb: “Yeni müsəlman truppası təşkil edilmişdir. Bu truppaların təşkilatçıları artist Sarabski və dirijor M.Maqomayevdir. Truppanın tərkibinə “Nicat”cəmiyyətinin keçmiş artistlərindən M.Terequlov, C.Bağdadbəyov, Ə.Ağdamski, M.Məmmədov və başqaları daxildir. Truppa hər həftə bir qayda olaraq tamaşa vermək niyyətindədir. Bu məqsədlə də müsəlman kompozitoru Ü.Hacıbəyovla müqavilə bağlamışdır. Truppanın birinci tamaşası müvəffəqiyyətlə keçdi. “Arşın mal alan” operettası tamaşaya hazırlanır”.[2]

O, Üzeyir Hacıbəyovun “Leyli və Məcnun”, “Şah Abbas və Xurşidbanu”, “Əsli və Kərəm”, “Rüstəm və Söhrab” operalarının, “Arşın mal alan”, “O olmasın, bu olsun” və Zülfüqar Hacıbəyovun “Evliykən subay” operettalarının ilk dirijoru olmuşdur.

Müslüm Maqomayev Azərbaycan musiqi mədəniyyəti tarixində ilk klassik operanın müəllifidir. Onun yeniliyi partituralarda Avropa musiqisinə meyil idi. O, gündəliyində belə yazır: “Mən öz qarşımda Üzeyir Hacıbəyov yazdığı şəkildə opera yazmaq vəzifəsini qoymuşdum. Lakin improvizasiya edilən muğamatdan başqa qalan bütün musiqi xüsusi tərzdə mənim öz yaradıcılığım olmalıdır”.[3]

Müslüm Maqomayevin dirijor kürsüsündə həmişə özünün olduğu, yazıldığından altı il sonra – 1919-cu ildə səhnələşdirilən və məhz həmin ildən iyirmi il müddətində 400 dəfə tamaşaya qoyulan ilk operası “Şah İsmayıl” haqqında fondda külli miqdarda tərif və təzad dolu resenziyalar vardır. Təzadlar, əsasən, əsərin libretto müəllifliyinin kimə məxsus olması və səhnəyə qoyulması zamanı meydana çıxan təbii və süni çətinliklərlə bağlıdır.

Hələ 1924-cü ildə əsərin qəhrəmanı Şah İsmayılın sayalıqdan uzaqlaşdırmaq cəhdləri qınananda, yenilik axtarışı pislənəndə Müslüm Maqomayev gördüyü işin yersiz tənqidçilərdən ucada durduğunu düşünürdü.

---

[1] Hüseynov R. Vaxtdan uca. Bakı, “İşıq”, 1987, s.59.

[2] Məmmədli Q. Ü.Hacıbəyov (1885-1948), həyat və yaradıcılığının salnaməsi. Bakı, “Yazıçı”, 1984, s.136.

[3] AMEA Füzuli adına Əlyazmalar İnstitutunun arxivi: f25, s.v.151.

Odur ki, dahi bəstəkarın "Şah İsmayıl" operası 1924-cü ildə yeni quruluşda, 1930-cu ildə isə daha yeni redaktə ilə səhnəyə qoyulmuşdur.

Azərbaycan teatr mühiti yeni formalaşmağa başlayırdı. Yeni operaların səhnələşdirildiyi məqamda hələ aktyor məktəbi formalaşmamışdı, aktyorlar müxtəlif peşə sahiblərindən seçilirdi. "Leyli və Məcnun" operasının aktyor tərkibə baxaq: "Məcnunu Hüseynqulu Rzayev (Sarabski) oynayırdı ki, o, bənna idi. Sonralar isə şəhərin müxtəlif köşklərində su satırdı. Məcnunun anası rolunda Mirzə Muxtar Məhəmməd oynayırdı. O da rus-tatar məktəbinin müəllimi idi. Nofəl rolunda çıxış edən Hənəfi Terequlov da müəllim idi. Leyli rolunda oynamaq üçün qadın aktrisamız yox idi..."[1]

Müslüm Maqomayevin arxivindəki məlumat tipli vərəqələrdən görürük ki, o, savadlı bir tənqidçi kimi bu işlərin içində olaraq həm çatışmazlıqları, əyri-əksikləri göstərir, həm də bir peşəkar kimi həlli yollarını da qeyd etməyi unutmur.

Üçüncü yarımfəsil **"M.Maqomayevin mədəni fəaliyyəti dövrü mətbuat kontekstində"** adlanır. Bu yarımfəsildə dövrün real mənzərəsini tədqiq etmək üçün əsas mənbə şəxsiyyətin müasirlərinin və bilavasitə Müslüm Maqomayevin məqalələridir. O, "Kommunist" qəzetinin 28 noyabr 1935-ci il tarixli sayında yazırdı: "Mən musiqi sənətinə hələ 1910-cu ildə məktəbdə müəllimlik edərkən sarılmışam. 1912-ci ildə operada iştiraka başlamış və Hacıbəyli qardaşları operalarının dirijorluğuna yardım göstərmişəm".[2]

Arxivdə olan dövrü mətbuat nümunələrinə əsasən, M.Maqomayevin yaradıcılıq yolunu bir tədqiqatçı kimi nəzərdən keçirdikdə onun yaradıcı fəaliyyətinin aşağıdakı xronikası üzə çıxır:

– Müslüm Maqomayev Sovet Azərbaycanının kütləvi mahnılarını yaradan ilk müəlliflərdən biridir.

– Qori Seminariyasının birinci sinfində oxuyarkən nota saldığı Azərbaycan folkloru nümunələri Beynəlxalq Paris sərgisində nümayiş etdirilmişdir.

– "Şah İsmayıl" Azərbaycanın o dövrdəki musiqi həyatında improvizə yolu ilə yaranmış milli operanı rus və Avropa klassik operasının texniki cəhətdən inkişaf etmiş formaları ilə əlaqələndirilməsində ilk təşəbbüs idi.

– Lənkəranda müəllimlik edərkən 300-dən artıq xalq mahnısı toplamışdır.

---

[1] Məmmədova M. Müslüm Maqomayevin arxivinin təsviri. Bakı, "Nurlan", 2005, s.5.

[2] Maqomayev M. Musiqi komediyası da yaradacağam. "Kommunist", 28 noyabr 1935-ci il.

– 1921-ci ildə Maqomayev Xalq Maarif Komissarlığında "İncəsənət" şöbəsi müdirliyinə təyin olunmuşdur.

– 1924-cü ildə yeni təşkil olunmuş Dövlət Opera Teatrının ilk rəhbəri olmuşdur.

– 1927-ci ildə onun redaktəsi ilə "Azərbaycan xalq mahnıları" kitabı çapdan çıxır. Həmin məcmuədə Ü.Hacıbəyovun və M.Maqomayevin nota saldıqları xalq mahnıları toplanmışdı. Bu məcmuə respublikamızda musiqi folklorşünaslığının əsasını qoymuşdur.

– Müslüm Maqomayev 1930-cu illərdə səsli filmlərin yaradılmasında fəal iştirak etmiş, ilk sənədli Azərbaycan filmlərindən olan "Bizim raport" və "Azərbaycan incəsənəti" kinolentlərinə musiqi yazmışdır.

– O, Cəlil Məmmədquluzadənin "Ölülər", C.Cabbarlının "1905-ci ildə" dramlarının tamaşalarına musiqi yazmışdır.

– "Şah İsmayıl" operasının birinci pərdəsində simfonik orkestr üçün cahargah muğamını bəstələmiş və bir müddət özünə "Cahargah" təxəllüsünü qəbul etmişdir.

– O, Azərbaycanda "Tənqid və təbliğ" teatrının yaranmasına kömək etmiş, yanğından tələf olmuş o zamankı Azərbaycan Dövlət Dram Teatrı binası onun qüvvəsi ilə bir müddətə tamamilə yenidən bərpa edilmişdir.

– 1929-cu ildən Maqomayev Azərbaycan Radio Komitəsində musiqi verilişlərinin bədii rəhbəri vəzifəsində çalışmışdır.

– Musiqi şöbəsinin bədii rəhbəri Müslüm Maqomayevin təşəbbüsü ilə 1929-cu ildən radioda böyük və kiçik heyətli simfonik orkestr təşkil olunmuşdur. Orkestrin heyətinə istedadlı musiqiçilər − skripka, violonçel, kontrabas, fleyta və qaboyçalanlar cəlb edilmişdir.

– Müslüm Maqomayevin təşəbbüsü və yaxından köməyi ilə radio komitəsində ilk olaraq notlu Azərbaycan xalq orkestri təşkil olunmuşdur.

– Müasir mövzuda yazılmış ilk klassik operanı − "Nərgiz" (1935) əsərini yaratmışdır. Bu operaya görə böyük bəstəkara Azərbaycan SSR Əməkdar İncəsənət Xadimi fəxri adı və əlavə olaraq 15 min manat pul mükafatı verilir.

"Nərgiz" operasına görə neçə gənc sənətkar mükafat almışdı. Operanın baş rol ifaçısı gənc vokalçı tələbə Firəngiz Əhmədova idi. O, sonralar yazır: "Hər məşqdən sonra Müslüm Maqomayev musiqisinin xəlqiliyini, professionallığını, melodizmini, yeniliyini, təsirini, demokratizmini dərindən hiss edirdim. Müslüm Maqomayev musiqisi adamı sehrləyir, ucaldır, mənəvi zənginləşdirir".[1]

---

[1] Əhmədova F. Həmişə müasir. "Kommunist" qəzeti. 24 may 1986.

Müslüm Maqomayevin yaradıcılığının birinci dövründə Azərbaycan folklorunun Avropa peşəkar musiqi sənəti ilə birləşmə prosesinə istinad edilsə də, təbii sintez ancaq "Nərgiz" operasında mümkün olmuşdur.

Dördüncü yarımfəsil **"M.Maqomayevin epistolyar irsi muzeyşünaslıq tədqiqatının predmeti kimi"** adlanır. Müslüm Maqomayevin epistolyar irsi onun yaradıcılıq sirlərini tədqiq etmək, haqqında yazılacaq elmi əsəri oxucuya daha dərindən çatdırmaq baxımından zəngindir. Belə ki, dahi bəstəkarın arxivində onun həm ailə üzvləri, həm yaradıcılıq dostları, həm də dövrün görkəmli ictimai-siyasi xadimləri ilə yazışmaları vardır.

Böyük sənətkarın Əlyazmalar İnstitutunun arxivində saxlanılan məktublarının tarixi ən qədimi onun hələ 1900-1904-cü illərdən, Qori Seminariyasında oxuduğu illərdən başlayır. Arxivdə Müslüm Maqomayevin həyat yoldaşı Badigülcamal xanıma yazdığı on bir məktub vardır. Qalan ailə məktubları isə həm oğullarına, həm də həyat yoldaşına birlikdə ünvanladığı məktublardır.

Müslüm bəyin sənət münasibətlərini araşdırarkən müasirləri, o cümlədən əqidə və sənət dostu Üzeyir Hacıbəyovla olan yazışmaları böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, Üzeyir Hacıbəyov əvvəl Moskvaya, sonra isə Peterburqa təhsil almağa getmişdir. Onun 1912-1914-cü illərdə həm Moskvadan, həm də Peterburqdan Müslüm Maqomayevə yolladığı, on iki məktub Müslüm bəyin epistolyar irsinin dəyərli nümunələri, həm də bir vəfalı dost olduğunu isbat edən sənədlərdir. 1912-ci il sentyabrın 4-də Üzeyir bəy bütün yaradıcılıq nümunələrindən istifadə səlahiyyətlərini vəkalətnamə ilə Müslüm Maqomayevə vermişdir: "Bu vəkalətnamə ilə sizə səlahiyyət verirəm ki, mənə aid olan musiqi əsərlərinin istifadəsi üçün nümayəndə olasınız. Ayrı-ayrı şəxslər, müxtəlif cəmiyyət və şirkətlərlə əsərlərimin istifadəsi üçün razılığa gəlmək, bu münasibətlə şərtlər təyin edib müxtəlif qiymətlərlə istədiyiniz kimi müqavilələr bağlamaq, əsərlərimin istifadəsi üçün pul almağı və ümumiyyətlə, bu işdə məni əvəz etməyi, harda lazım gələrsə, mənim əvəzimdən qol çəkməyi, qanunun tələb etdiyi bütün formal işləri yerinə yetirməyi Sizə etibar edirəm. Bütün bunları Sizin qanuni yolla icra edəcəyinizə inanıram, bu münasibətlə sizinlə mübahisə etməyəcək və etiraz etməyəcəyəm".[1]

Üzeyir bəy bəzi əsərlərini borclarını ödəmək üçün yazırdı. Ancaq Konservatoriyada oxuduğu müddətdə dərs yükünün ağırlığı ona yeni əsər yaratmağa mane olurdu. Bundan əlavə, Peterburq Konservatoriyasının qaydalarına görə də yeni əsər yaratmaq, bəstəkar kimi çıxış etmək qadağan

[1] Hüseynov R. Vaxtdan uca. Bakı, "İşıq", 1987, s.40-41.

idi. Belə olduqda yenə ümid yeri dostu Müslüm bəy idi. Onun 16 may 1914-cü ildə Müslüm Maqomayevə Peterburqdan yolladığı məktubu yenə ümid, təşəkkürlə doludur:

"...Bu ili biz ehtiyacsız başa vurduq, bunun da sayəsində mən konservatoriyaya daxil ola bildim. Bütün bunlar üçün mən ancaq sənin səmimi yardımına minnətdaram, sən öz istirahətini və səhhətini bu işə qurban verdin. Bunların əvəzində sənə təşəkkür edə biləcəyəmmi − bunu gələcək göstərər".[1]

Ömrünün sonlarına yaxın yazılmış məktubların xarakteri dəyişir. Burada əvvəlki sevinc, qayğı, ümid, yaradıcılıq əzmi deyil, dəhşət, ağrı-acı və ümidsizlik müşahidə olunur. Müslüm Maqomayevin ömrünün bu dövründə ailəsinə ünvanlandığı 40 məktub mövcuddur.

Dissertasiyanın II fəsli "**Bülbülün şəxsi arxiv materiallarında dövrün ictimai-mədəni gerçəkliyinin inikası məsələləri**" adlanır. Azərbaycan professional vokal sənətinin banisi Bülbülün həyatını, fəaliyyətini əks etdirən bütün sənədlər və materiallar onun 1937-ci ildən ömrünün sonunadək yaşadığı evdə − Bülbülün Memorial Muzeyində toplanılmışdır. Muzeyin arxivi tamamilə Bülbülün həyatını əhatə edir. Burada dahi vokalçının həm şəxsi əşyaları, hədiyyələri, kitabxanası, əlyazmaları, həm də onun yaradıcılıq fəaliyyətinin əyani sübutu olan sənədləri toplanmışdır. Azərbaycanda XX əsrin ortalarında açılan ev-muzeylərindən biri də Bülbülün Memorial Muzeyi idi. Təntənəli açılışda Ümummilli lider Heydər Əliyev ekspozisiyaya tamaşa etdikdən sonra demişdir: "Bülbül özünün bütün parlaq, ilhamlı yaradıcılığı ilə gözəl həyatı, zəngin bədii irsi ilə ümumxalq məhəbbəti və hörməti qazanmışdır".[2]

Ona aid sənədlərin, məruzələrin, elmi məqalələrinin, əlyazmaların əsas dəyər meyarı Bülbülün imzasıdır. Daha bir üstünlük isə 9000 mühafizə vahidinin məhz bir məkanda cəmləşdirilməsidir ki, bu, 64 il ömür sürən bir sənət fədaisinin elmi, pedaqoji, ictimai, mədəni fəaliyyətinin aynasıdır.

Muzeyin fondlarının struktur bölgüsü fondda saxlanılan muzey əşyalarının tərkibinə əsasən müəyyənləşdirilmişdir. Fondun tərkib xüsusiyyətlərinə əsasən, bölgü Əsas fond və Elmi-köməkçi materiallar fondu üzrə aparılmışdır. Muzeyin ən orijinal və unikal əşyaları fondda Yazılı, Foto-neqativ, Fono, Təsviri və Xatirə-memorial məxəzlər üzrə qruplaşdırılmışdır. Bülbülün şəxsi arxivində sənəd materialları Yazılı məxəzlər fondunda cəmləşdirilmişdir.

---

[1] AMEA Füzuli adına Əlyazmalar İnstitutunun arxivi: s.v.133, 16.05.1914.

[2] Bayramov A. Heydər Əliyev və muzeylərimiz. Bakı, "Şur" nəşriyyatı,1999, s.36

Arxivdə həyatının müxtəlif dövrlərində qələmə aldığı tərcümeyi-halı tədqiqatçı üçün ən əvəzsiz mənbədir. Bəzən təfərrüatı ilə yazılmış bu yazıların səhifəsinin sayı iyirmi altıya qədər yüksəlir. Əlimizə bu vərəqləri alarkən o dəqiqə Bülbülün hələ İtaliyada ikən "La Skala"da on dörd dəfə dinlədiyi, ustad hesab etdiyi Şalyapinin sözlərini xatırlayırıq: "Sənədlər susanda əfsanələr danışır. Əgər öz doğru tərcümeyi-halını özün yazmasan, onu başqaları uyduracaqlar".[1]

Bülbül haqqında 21 kitab yazılmışdır ki, bunlardan on birinin müəllifi Bülbülün fondyaradıcısı, dahi vokalçının həyat yoldaşı və ilk tədqiqatçısı Adelaida Məmmədovaya məxsusdur. A.R.Məmmədovanın Bülbülün 1931-ci ildən 1961-ci ilədək olan məqalə, məruzə və yazışmalarını əhatə edən sənədli materiallarını toplayaraq qələmə aldığı "Маэстро Бюль-Бюль. Докладные. Выступления. Письма" adlı kitabı məhz arxiv sənədləri əsasında yazılmış monoqrafiyadır.[2]

Bülbül Azərbaycanda bütün yeni yaranan operaların baş rol ifaçısı olmuşdur. Hətta Üzeyir Hacıbəyov "Koroğlu" operasını bu lirik-dramatik tenor səs üçün yazmışdır. Mehdi Məmmədov "Teatr düşüncələri" kitabında qeyd edir: "Bülbülün sənət fəzalarında uça bilməsi üçün "Koroğlu" və "Nərgiz" kimi müasir operalar gərək idi. Onlarsız Bülbülün sənəti müəyyən mənada potensiyada qala bilərdi. Lakin Bülbülün vokal sənətinə gətirdiyi novatorluq, Bülbül məktəbi, Bülbül sənətkarlığı olmadan yeni operalarımız da layiqincə səslənməz, təcəssüm tapmaz, yaşamaq haqqı, hüququ qazana bilməzdi".[3]

İkinci fəslin birinci yarımfəsli **"Bülbülün Memorial Muzeyinin arxivi Bülbülün mədəni fəaliyyətinin əsas qaynağı kimi"** adlanır. Bülbülün Memorial Muzeyi dövlət tərəfindən 1937-ci ildə ədəbiyyat və incəsənət xadimləri üçün verilmiş binada yerləşir. Bülbülün həyatının xronologiyasını öyrənmək üçün şəxsi arxivində Bülbül haqqında rəsmi dövlət orqanları tərəfindən verilmiş arayışlar, əmrlər sənətkarın həyatı və fəaliyyətinin qərəzsiz yazıya alınması üçün istinad edilə biləcək sənəd-lərdir. Azərbaycan konservatoriyasında ilk vokalçı azərbaycanlı tələbə olaraq hər kəsi ovsunlayan Bülbülün İtaliyaya ezamiyyətə göndərilməsi haqqında arayış bəhs etdiyimiz mənbələrdən biridir: "Yoldaş Bülbülə verilir ona görə ki, o, Xalq Maarif Komissarlığı tərəfindən iki il müddətinə İtaliyaya təhsil almaq üçün göndərilir. Orada qaldığı müddətdə hər ay 75 dollar təqaüd alacaqdır". Bu sənəd 20 oktyabr 1927-ci ildə Bülbülün

---

[1] Məmmədova A. Bizim Bülbül dünyanın Bülbülü. Bakı, "Nağıl evi", 2011, s.92

[2] Мамедова А. Маэстро Бюль-Бюль Докладные, выступления, писма 1931-1961. 267 стр.

[3] Məmmədov M. Teatr düşüncələri. Bakı, "İşıq", 1977, s.211.

Konservatoriyanı bitirdiyi ildə imzalanmışdır. Lakin italyan ifaçılıq məktəbi və tədris metodikasını öyrənmək üçün olan imkanlar bu müddətin iki ildən dörd ilədək uzadılmasına gətirib çıxarmışdır.

Bundan başqa, Bülbül haqqında çap edilmiş məqalələr də vardır ki, bunlardan ən əsası və qiymətlisi 1931-ci ildə İtaliyanın məşhur musiqi jurnalı "Arte nostra"da Bülbül haqqında çap edilmiş məqalə və Bülbülün portretidir. Məqalədə deyilir: "Bülbül müsəlman şərqindən olan ilk azərbaycanlı vokalçıdır ki, İtaliyaya təhsil almaq üçün gəlmiş və spesifik Şərq oxumasından Avropa oxuma məktəbinə keçmişdir".[1]

1926-cı ildə Rusiyada dərc edilən "Музыка и октябрь" jurnalı da Bülbül haqqında xaricdə dərc edilən və onun yaradıcılığının konkret istiqamətdə dəyərləndirildiyi jurnallardandır.[2]

İtaliyada "belkanto" məktəbi keçmiş Bülbül, Azərbaycanın yerli musiqi mədəniyyətinə heyran idi. Məqalələrini, nitqlərini oxuyarkən dəfələrlə bu sevginin şahidi oluruq: "Aşıq sənətinin ən özünəməxsus cəhəti yaradıcılıqda sintetizmdi: Söz və musiqi, ifa və rəqs. Onlar şair, rəqqas və musiqiçidirlər. Aşıq yaradıcılığı dərin səmimiyyət və emosiya ifadə edir".[3]

Bu yarımfəsildə Bülbülün ev-muzeyində qorunan şəxsi arxiv materiallarını XX əsr ədəbi-mədəni mənzərəsi kontekstində dəyərləndirilməsi bizə belə nəticəyə gəlməyə imkan verir ki, Bülbülün zəngin – 9000-ə yaxın materialdan ibarət şəxsi arxivi muzeyünaslıq tədqiqatının predmeti kimi aktual elmi məsələdir.

Bu fəsildə ikinci yarımfəsil **"Professor Bülbülün elmi araşdırmaları"** adlanır. Azərbaycan musiqişünaslıq elminin yaranması, formalaşması sahəsində Azərbaycan professional vokal sənətinin banisi Bülbülün yaradıcılıq fəaliyyəti danılmazdır. Bülbülün bir musiqişünas-alim kimi Azərbaycan elmi və musiqi mədəniyyəti qarşısında gördüyü işləri nəzərdən keçirsək, onun bütün elmi-fəaliyyət istiqamətlərini sadalasaq, görərik ki, Bülbülə verilmiş professorluq attestatından daha güclü sübut onun gördüyü işlərdir:

– Bülbül konservatoriyada vokal üzrə təhsil alanı ilk azərbaycanlı tələbədir;

– Vokal üzrə ilk azərbaycanlı professordur;

– Vokalçıların Moskvada keçirilən birinci Ümumittifaq müsabiqəsində laureat adı alan ilk azərbaycanlıdır;

---

[1] Bülbülün Memorial Muzeyinin arxivi: DK1-2809.

[2] Bülbülün Memorial Muzeyinin arxivi: DK1-2682.

[3] Bülbülün Memorial Muzeyinin arxivi: DK1-3584.

− Şərq ifaçılığından Avropa ifaçılıq məktəbinə keçən ilk azərbaycanlı vokalçıdır;

− Avropa və rus professional vokal məktəbinin Azərbaycan vokal-ifaçılıq mədəniyyətinin ənənələri ilə qovuşmasının mümkünlüyünü elmi cəhətdən isbat etdi və vokal sənətində inqilab edərək bu sahədə yeni bir məktəb yaratdı;

− Zaqafqaziyada ilk Elmi-Tədqiqat Musiqi Kabineti − ETMK-nın təşəbbüskarı və təşkilatçısıdır. ETMK-nın bazasında Azərbaycan EA İncəsənət və Memarlıq İnstitutu yaranmışdır;

−"Azərbaycan xalq musiqisinin əsasları", "Azərbaycan dilinin fonetikası" əsərlərinin yaranmasının təşəbbüskarı və bilavasitə iştirakçısıdır;

– Simfonik muğamların yaranmasının təşəbbüskarıdır;

– Aşıq yaradıcılığına dair şifahi materialların − xalq nağılları, əfsanə, dastan, qəzəllərin, aşıq musiqi yaradıcılığının 250 çap vərəqi həcmində toplanması üçün briqadaların təşkilatçısıdır;

− 1938-1961-ci illərdə keçirilmiş Aşıqlar Qurultaylarının təşəbbüskarıdır. O, həmçinin bu qurultaylarda məruzəçi, onların keçirilməsi layihələrinin müəllifidir;

− 500 adda Azərbaycan xalq mahnı və rəqslərindən ibarət məcmuələrin tərtibçisi və redaktorudur;

– Parlaq istedadların üzə çıxarılması üçün ilk musiqi olimpiadasının keçirilməsinin, SSRİ-nin ən yaxşı musiqişünaslarının müşavirəsinin çağırılmasının təşkilatçısıdır;

– Neftçilərin Mərkəzi Mədəniyyət Sarayının və onun nəzdində neftçilərin uşaqları üçün musiqi məktəbi yaradılmasının təşəbbüskarıdır;

– Səsyazma kabinetinin, Opera studiyasının, Konservatoriyada Solo ifaçılıq xüsusi sinfinin, not nəşriyyatının təşkilatçısıdır;

− 1937-ci ildə Moskvada Bülbülün təşəbbüsü və Uİ(b)P MK-ya məktubu əsasında Ümumittifaq Vokal Konfransı çağırılmışdır. Burada o, ölkənin bütün musiqi ictimaiyyətinin böyük marağına səbəb olan geniş məruzə ilə çıxış etmişdir;

− 1940-cı ildə Moskvada çağırılmış Umumittifaq Vokal Konfransında maraqlı məruzə ilə çıxış etmiş və "Vokal kafedrasında elmi-tədqiqat və elmi-metodiki iş aparmağın zəruriliyi, milli muğənnilərin hazırlanması, bütün qardaş respublikalarda Ümumittifaq Teatr Cəmiyyəti şöbələrinin təşkili, SSRİ xalqları yaradıcılığının öyrənilməsi üzrə Mərkəzi İnstitutun yaradılması" kimi bir sıra mühüm məsələlər irəli sürmüşdür;

– Bülbül 1957-ci ildə keçirilən VI Ümumittifaq Moskva festivalında Şərq xalqlarının klassik oxuma müsabiqəsinin münsiflər heyətinə sədrlik etmişdir.

Üçüncü yarımfəsil **"Bülbülün musiqi folkloru sahəsindəki fəaliyyətinin əsas arxiv mənbələri"** adlanır. 1926-cı ildə Bülbül Moskvaya getmiş, paytaxtda təzəcə yaradılmış Musiqi Elmləri İnstitutu ilə ciddi maraqlanmış, etnoqrafik bölmənin sədri Pasxalov da Bülbülün bu marağına əsasən, onu bir neçə gün orada bölmənin işi ilə tanış etmişdir. Bülbül burada fonoyazılarla, tədqiqat işləri ilə tanış olmuş və Azərbaycanda Elmi-Tədqiqat Musiqi Kabineti (ETMK) yaratmağı qəti qərara almışdı. 1932-ci ildə yaratdığı Elmi-Tədqiqat Musiqi Kabineti də bu axtarışın nəticəsində meydana gəlmişdi. Bu Kabinet Azərbaycan musiqi folklorunun ən yaxşı nümunələrini toplamaq, öyrənmək və çap etməklə məşğul olmalı və öz kökləri ilə uzaq keçmişə gedib çıxan xalq mahnılarını bütün rəngarəngliyi ilə üzə çıxarmalı, Azərbaycanın hər yerinə səxavətlə səpələnmiş bir xəzinəni geniş ictimaiyyətin sərvəti etməli idi.

Bülbülün Zaqafqaziyada ilk dəfə olaraq yaratdığı bu Kabinet onun üçün əvəzsiz bir təcrübə olmuşdur. Onun həm rəhbərliyi, həm də iºçi kimi apardığı tədqiqat işləri bu sahədə Azərbaycanda ilk mütəxəssisin yetişməsi demək idi. Odur ki, Bülbül bu bacarığı ilə də Azərbaycan sərhədlərindən kənarda tanınmışdır. Arxivdə rast gəldiyimiz bir rəsmi məktubda Bülbül Nejdanov adına Vokal Yaradıcılığı Kabinetinin təşkil olunması üçün bu Kabinetin üzvü vəzifəsinə dəvət olunmuşdur. Məktubun məzmunu belədir: "Nejdanov adına Vokal Yaradıcılığı kabineti Sizdən Kabinetin aktiv üzvləri sırasında yer almağınızı xahiş edir. Ümid edirik ki, Siz, yeni fəaliyyətə başlayan, rus vokal məktəbinin prinsiplərinin təsdiqini tapacağı kabinetdən öz yaradıcı əməyinizi əsirgəməyəcəksiniz. Səmimi salamlarla, N.Qolovanov".[1]

Bülbül Süleyman Rəhimov haqqında yazdığı məqaləsində həm şairin, həm də mədəniyyətimiz üçün gördüyü gərgin işlərdən danışarkən özünün də rayonlara olan ekspedisiyaların tərkibində olduğunu və iş prosesini belə ifadə edir: "Asəf Zeynallı ilə Laçına səfərimiz səmərəli keçdi, çoxlu gözəl mahnı və xalq ədəbiyyatı nümunələri topladıq. Bakıya qayıdan kimi topladığım mahnılarla Süleymanı tanış etdim. O buna çox sevindi və bizim mahnı toplamağımızı bəyəndi".[2]

---

[1] Bülbülün Memorial Muzeyinin arxivi: DK1-2851

[2] Bülbülün Memorial Muzeyinin arxivi: DK1-3802.

Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Tofiq Quliyev, Səid Rüstəmov, Niyazi, Zakir Bağırov və başqa bəstəkarlar onların peşəkar, professional cəhətdən yetişməsində Bülbülü minnətdarlıqla xatırlayırdılar. ETMK-ya rəhbərlik edən Bülbülün köməyi ilə Fikrət Əmirov "Şur" və "Kürd-ovşarı"simfonik muğamlarını, Niyazi isə "Rast" simfonik muğamını bəstələmişdir. İlk Azərbaycan simfonik muğamlarının müəllifi Fikrət Əmirov öz imzası ilə Bülbülə bağışladığı "Kürd-ovşarı" partiturası üzərində yazırdı: "Şur" və "Kürd-ovşarı" simfonik muğamlarının yaranmasında təşəbbüskar və məsləhətçi, musiqimizin ən gözəl bilicisi kimi, onun ən yaxşı ənənələrini özündə yaşatmış ustad kimi mən sənə borcluyam, əziz Bülbülüm".[1]

ETMK-nın musiqi folklorunun toplanması, tədqiqi, nəşri sahəsindəki fəaliyyətinin bu gün ilk baxışdan, bəlkə də, görünməyən bir tərəfi də vardır. Bu ETMK-nın əsl folklorşünaslıq məktəbi olmasıdır.

Bülbülün Memorial Muzeyində DK1-2920 nömrəsi ilə mühafizə edilən sənəddə, Azərbaycan SSR Mədəniyyət Nazirliyindən İ.İ.Nəzərov tərəfindən Bülbülə verilmiş xasiyyətnamədə, Bülbülün gördüyü işlər içərisində ETMK-nın fəaliyyəti daha da qabarıq şəkildə göstərilir: "1932-ci ildə Bülbül Azərbaycan xalq musiqisini toplayan və öyrənən ilk Musiqi Elmi-Tədqiqat Kabineti yaratmış, aparılan tədqiqatlar nəticəsində xalq musiqisindən ibarət iki böyük toplu çap etdirilmiş və instrumental ifa üçün 1000 mahnı toplanılmışdır. Daha sonra bu kabinetin əsasında Ü.Hacıbəyov adına İncəsənət İnstitutu yaradılmışdır".[2]

Beləliklə, sənədlər dəqiq tarixi məlumat verir ki, ETMK Bülbülün rəhbərliyi ilə on iki il, yəni 1932-ci ildən 1944-cü ilədək mövcud olmuş, həmin ildə Azərbaycan SSR Elmlər Akademiyasının sisteminə keçmiş və onun əsasında incəsənət bölməsi yaradılanadək sərbəst fəaliyyət göstərmişdir. 1945-ci ildə isə bu bölmə Elmlər Akademiyasının İncəsənət İnstitutuna çevrilmişdir.

III fəsil **"A.A.Tuqanovun şəxsi arxivi və XX əsr Azərbaycan teatr mədəniyyəti"** adlanır. Azərbaycan teatr sənətinin inkişafı digər qafqaz xalqlarının artıq malik olduğu bu sənətdən geridə qalırdı. Səbəb təkcə din məsələsi deyildi, burada çarizmin Azərbaycanda maariflənməni gecikdirməsi, mane olması idi. Dövrü mətbuatda və sənədlərdə mədəniyyətimizin inkişafı Azərbaycan Demokratik Respublikasının qurulması ilə əlaqələndirilmir. Lakin dövr olaraq senzuranın hədəfindən

[1] Məmmədova A. Bizim Bülbül dünyanın Bülbülü. Bakı, "Nağıl evi", 2011, 254

[2] Bülbülün Memorial Muzeyinin arxivi: DK1-2920.

yayınılaraq bu, oktyabr inqilabı və sovet hökumətinin qurulması ilə əlaqələndirilir. 20-ci illərdən daha əvvəl başlayan mədəniyyətdə yüksəliş dövrü bu illərdə daha da güclənmişdir. Xüsusilə Azərbaycanda teatrların milliləşdirilməsi, təhsilli aktyorların yetişdirildiyi Teatr texnikumunun yaradılması, teatr tarixini olduğu kimi dondurub bizi zamana səyahət etdirən teatr muzeyinin, yeni teatr binalarının yaradılması məhz bu illərin məhsuludur.

1920-ci ildə may ayının 18-də teatrların milliləşdirilməsi və Azərbaycan xalqının mülkiyyəti elan edilməsi barədə dekret verildi.

Doğrudur, 1923-cü ildə Azərbaycan öz peşəkar teatrının yaranmasının əlli illiyini qeyd etmişdir. Lakin ilk yaranan teatrın estetik prinsipləri artıq insanları qane etmirdi. Bu da incəsənət ustalarını daha da peşəkar olmağa ruhlandırır və buna dəvət edirdi. XVIII əsr maarifçilərindən Lessinq teatr haqqında belə düşünürdü: "Teatr böyük maarifpərvərlərin üçüncü silkə öz nitqləri ilə müraciət edə bilməsi üçün yeganə kafedradır".[1]

XX əsrin əvvəllərində Azərbaycan teatr sənətinin inkişafını təmin edən səbəblərdən biri və ən əsası Tiflis Azərbaycan Teatrının əvvəl bəzi üzvlərinin, sonra isə teatrın özünün Bakıya köçürülməsi idi.

Aleksandr Tuqanov kimi təcrübəli bir rejissoru Azərbaycana qazandıran da məhz Tiflisdə azərbaycanlılar yaşayan yerdə, kiçik bir klubda fəaliyyət göstərib böyük hədəflər nişanlayan bir truppanın fəaliyyəti idi. A.A.Tuqanov 1918-ci ildən Azərbaycan teatrına və teatr həvəskarlarının fəaliyyətinə maraq göstərsə də, 1923-cü il avqust ayının 23-dən bu yaxınlıq onu Azərbaycan Dram Teatrının rəhbəri, rejissoru, repertuar komissiyasının üzvü vəzifəsinə gətirmişdir. Ədalət Vəliyev A.Tuqanovun Tiflisdən Azərbaycan Akademik Milli Dram Teatrına baş rejissor vəzifəsinə təyin olunmasını "Azərbaycan teatrının ən maraqlı mərhələlərindən biri" adlandırır.[2]

A.Tuqanovun bu fəsildə bəhs edilən yaradıcılıq fəaliyyətinin uğurları − çünki onun hər fəaliyyəti uğura çevrilmişdir − onun şəxsi arxivində, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Tarixi Muzeyində qorunur. Bu muzey Azərbaycan teatrı üçün yaşayan dahi Cəfər Cabbarlının adını daşıyır. Ancaq A.Tuqanovun da bu muzeyin tarixi ilə bağlı yaxından əlaqəsi vardır. Qeyd edək ki, muzey yaratmaq ideyası və köməyini A.Tuqanov texnikumdan tanıdığı Ağakərim Şərifova vermişdir. Gündəliyində Moskva Teatr Muzeyinin yaradıcısı Baxruşinlə müqayisə

---

[1] Məmmədzadə H. Mirzə Fətəli Axundov və Şərq. Bakı, "Elm", 1971,s.49

[2] Vəliyev Ə., Əlizadə M. Əqidə, ruh və teatr. Bakı, 2009, s.53

etdiyi Ağakərim Şərifovu məktubla Moskvaya, həm Baxruşinlə, həm də B.Prıqunovla məsləhətə göndərdiyini və bu sahədə onun muzey işini bilən mütəxəssis işçilər tapdığını qeyd etmişdir. Odur ki, A.Tuqanovun °əxsi arxivinin saxlanılması, haqqında elmi-tədqiqat işlərinin aparılması üçün seçilmiş ən uyğun məkan Teatr Muzeyidir.

Üçüncü fəslin birinci yarımfəsli **"A.Tuqanovun mədəni fəaliyyətinin başlıca istiqamətləri"** adlanır. Məlumdur ki A.Tuqanov haqqında özünün müəllifi olduğu "Teatr xatirələri" kitabından və bir neçə məqalədən başqa irihəcmli tədqiqat əsəri yoxdur. Bununla əlaqədar qeyd edilən paraqrafda Aleksandr Tuqanovun Teatr Muzeyinin fondlarında saxlanılan tərcümeyi-halı əsasında həyatının qısa xronikası verilmişdir.

A.Tuqanov öz tərcümeyi-halında uşaqlığını çox həvəslə, sevgi ilə qürur duyaraq yadına salır: malik olduğu xüsusiyyətlər, ilk dəfə tanış olduğu biliklər, rəqsə, teatra həvəs və bu həvəsdən evdəki mebelin, daşların, qutuların, hətta daşına bilən nə vardısa, hamısının köməyilə qurduğu ilk kompozisiya. O, bunlardan bir uşaq kimi ev düzəltməmişdi, bu, onun qurduğu, istedadının var olduğunu göstərən ilk kompozisiya idi.

İtalyan opera artistlərinin Moskvada çıxış etdiyi 80-ci illərdə Tuqanov hələ dramatik tamaşalarla tanış deyildi. Ona elə gəlirdi ki, tamaşa dedikdə ya rəqs etməlisən, ya da oxumalısan. Bacısı Nataliyanın Aleksandro-Marinsko İnstitutuna qəbul edilməsindən sonra onlar institutda dram tamaşası hazırlayırlar və bacısı öz həvəskar qardaşını da səhnəyə aparır. Bu, A.Tuqanovun ilk dramatk səhnə əsəri ilə tanışlığı olur. Bu əsər Fonvizinin "Bacarıqsız" adlı səhnə əsəri idi. Əsər onu bir tamaşaçı kimi həyəcanlandırmışdı. Lakin həyatının səhnə ilə, dram ilə bağlayan əsər "Бедность не порок" adlı dramatik əsər idi. Bu tamaşa onun həyatında dönüş yaradacaq qədər iz buraxmışdır: "Mən sənətin bu yeni növünə − dramatik teatra heyran oldum və mənə belə gəldi ki, mənim bütün həyatım aktyor olmağa bağlıdır".[1]

Yüksək istedadı nəticəsində A.Tuqanov tezliklə böyük səhnələri fəth etməyə başlamışdır. Onun arxivinin saxlanıldığı qovluqda A.Tuqanovun üç tərcümeyi-halı vardır. Biri rus dilində qələmə alınmış olub, çox genişdir. Digərləri isə Azərbaycan dilində həyatının qısa xronologiyası şəklindədir. Bunlardan birində o, ilk uğurunu belə ifadə edir: "1892-ci ildə Nemiroviç Dançenkonun sayəsində mən, Peterburqda Panajevski teatrına xidmətə girdim. Birinci dəfə olaraq sevgili mövqeyimi mən Saritsində tutdum. Saritsindən sonra mən Simbirskdə xidmət etdim. Əsl fəaliyyətimin

[1] Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin arxivi: inv№9877.

başlanğıcını mən, Moskvada F.A.Qorş teatrosunda hesab edirəm, mən burada tez bir zamanda birinci mövqe tuta bildim. Böyük müvəffəqiyyətə baxmayaraq, mən Qorşun teatrosunda on mövsüm xidmət edərək 1901-ci ildə Moskvanı tərk etdim və Samaraya keçdim”.[1]

Bir zamanlar müxtəlif teatr cəmiyyətlərində çıxış edən A.Tuqanov 1915-ci ildə Tiflisdə özünün “TARTO” cəmiyyətini qurmuşdur. Burada həm tamaşada iştirak edir, həm də rejissorluq edirdi. “O, beş il TARTO-da aktyor, rejissor kimi işlədi və beş il fasiləsiz onun rəhbəri oldu”.[2]

A.Tuqanov Azərbaycan teatrına həsr etdiyi illərini tərcümeyi-halında belə qeyd edir: “Beləliklə, həyatımın 49 ili tamamilə sevdiyim işə − teatroya verilmişdir ki, bunun 25 ilini mən Zaqafqaziyada keçirmişəm. Bunun 16 ili sovet teatrosunda, 12 ili türk səhnəsində keçmişdir”.[3]

1912-ci ildən o, daimi işləmək üçün Tiflisə gəlmişdir. Burada A.Tuqanov Tiflisdə göstərilən müsəlman tamaşalarına necə maraqla tamaşa etdiyindən söz açır. Hətta A.Tuqanovun yaratdığı “TARTO” cəmiyyəti 1918-1919-cu il teatr sezonunu müsəlman konserti ilə açmışdır. Bu əvəzsiz konsert professional teatrdan uzaq olsa belə, nəhayət, Aleksandr Aleksandoviç Tuqanov müsəlman tamşalarına və yaradıcılığına başlamışdır.

Azərbaycanın Xalq artisti Mustafa Mərdanov həmin dövrdə A.Tuqanovla birgə işini belə xatırlayır: “1922-ci ildə öz benefisimə “Ədirnənin fəthi”ni hazırlayırdım; əsərdə baş rolu – Harisi özüm oynayırdım. Tamaşanın daha gözəl hazırlanması üçün Tiflis Dövlət Rus Teatrının baş rejissoru A.Tuqanovu “Ədirnənin fəthi”nin rejissorluğuna dəvət etdik. Tuqanov əsəri gözəl surətdə hazırlayıb tamaşaya qoydu”.[4]

Artıq 27 avqust 1923-cü il tarixindən A.Tuqanov Azərbaycan Akademik Dram Teatrının bədii rəhbəri, repertuar komissiyasının üzvü və baş rejissoru olmuşdur.

İkinci yarımfəsil **“A.Tuqanovun yaradıcı şəxsiyyəti mədəni-ictimai münasibətlər kontekstində”** adlanır. Arxiv sənədləri bizə dəqiq məlumat verir ki, A.Tuqanov səkkiz il Akademik Dram Teatrının bədii rəhbəri, on beş il Gənc Tamaşaçılar Teatrında baş rejissor vəzifəsində çalışmış, yeddi il Teatr İnstitutunda pedaqoji fəaliyyət göstərmişdir. Azərbaycan Dövlət Teatr İnstitutunun direktoru M.A.Musayev tərəfindən A.Tuqanova Sosial Müdafiə

---

[1] Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin arxivi: inv№1890.

[2] Мамедов М. А.А.Туганов. Баку, Азербайджанский Государственный Издателство, 1971, 29.

[3] Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin arxivi: inv№1890.

[4] Bayramov A. A.Tuqanov Tiflis Azərbaycan Teatrında. “Mədəniyyət” qəzeti. 13 iyul 2011-ci il, s.12

Nazirliyinə təqdim etmək üçün verilən arayışa əsasən, yuxarıdakı məlumatın sənədlə doğruluğuna baxaq:

"Aleksandr Aleksandroviç Tuqanova verilir ona görə ki, o, 15 sentyabr 1945-ci ildən (əmr №25, 20 sentyabr 1945-ci il) 01 iyul 1952-ci ilədək (əmr №270 03 iyul 1952-ci il)Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor ustalığı və rejissor sənəti kafedrasında pedaqoq kimi fəaliyyətə başlamış və kafedra müdiri olmuşdur".[1] Qeyd edək ki, sənəd 19 noyabr 1952-ci ili göstərir.

A.Tuqanovun pedaqoji sahədəki fəaliyyəti Azərbaycanda yerli kadrların yetişdirilməsinə verilmiş bir töhfədir. O, Azərbaycan Konservatoriyasında opera sinfinin rejissoru olmuşdur. Bundan başqa M.F.Axundzadənin adını daşıyan Böyük Opera Teatrının nəzdində fəaliyyət göstərən balet məktəbində rəqs tarixindən mühazirələr oxumuşdur. Onun rəqslə bağlı xatirələri arxivində xüsusi yer tutur. Hətta belə yazırdı ki, o, dram teatrından əvvəl opera teatrı ilə tanış idi. Çünki A.Tuqanovun təhsil aldığı illərdə Moskvada italyan operaları və bu sənətə maraq geniş idi.

A.Tuqanovun Azərbaycan Dövlət Teatr Muzeyindəki arxivində olan arayışların biri onun konservatoriyada fəaliyyətini təsdiq edir. Həmin arayış Konservatoriyanın direktoru R.Xəlilov tərəfindən 17 may 1947-ci il tarixində verilmişdir: "Professor A.A.Tuqanova verilir ona görə ki, o, professor Bretanskinin, professor Berolskinin və Qrossmanın təsdiqinə əsasən, 1935-ci ildən etibarən Azərbaycan Konservatoriyasında fasiləsiz olaraq müəllim kimi çalışır".[2]

A.Tuqanova görə, hər bir teatrın uğur qazanması onun aktyorlarının davranışlarından da asılıdır. Yəni baş rolda oynayan ən yaxşı bir aktyorun kütləvi səhnələrdə çıxış etməsində heç bir eyib iş yoxdur. Aktyorlardan daim nizam-intizam tələb edən rejissor səhnədə yol verilən səhvlərə də öyrədici yanaşmışdır. Bu haqda da onun özünəməxsus prinsipi vardır: "Azərbaycanlılar – istedadlarla çox zəngin olan xalqdır, sizin temperament, sizin heyrətamiz fantaziyanız və poeziyanız bu cəhətdən gözəl nümunələrlə doludur. Deməli, yalnız iradə lazımdır, işləməyə həvəs olsa, gözəl bəhrəsini görəcəyik. Cəsarətli olmaq lazımdır – səhvlərdən qorxmamalıyıq, onlardan qaçmaq olmaz, yalnız heç bir iş görməyən adamlar səhv eləmirlər".[3]

A.Tuqanov "Teatr xatirələri"ndə XX əsrin əvvəllərində yaşayıb yaratmış bəzi incəsənət xadimlərimizi xüsusi vurğulamışdır və bəlkə də onun bu mədəniyyətə hər iki mənada həyat verməsinin səbəblərindən biri də onlardan

---

[1] Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin arxivi: inv№5708.

[2] Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin arxivi: inv№4316

[3] Tuqanov A. Teatr xatirələri. Bakı, "Yazıçı", 1980, s.89

aldığı ilham olmuşdur. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Sidqi Ruhulla, İsmayıl Hidayətzadə, Cəfər Cabbarlı kimi sənət fədailərindən, birgə çalışmalarından, dostluqlarından xatirələrində xüsusilə bəhs etmişdir. A.A.Tuqanov Azərbaycan səhnəsinə tərcümə əsərlərinin fərqli quruluşlarını gətirmişdir. Ancaq şərq üçün doğma olan, Azərbaycan səhnəsində tələb görən əsərlərin məhz Cəfər Cabbarlıya məxsus olduğunu qeyd etmişdir. “Od gəlini”, “Almaz”, “Sevil” kimi müasir mövzuda yazılmış dram əsərlərini böyük zövqlə səhnəyə qoymasından xatirələrində geniş söhbət açır.

A.Tuqanov Azərbaycan teatrına gəldiyi ilk illərdən etibarən inkişafı bu istiqamətdə qurmağa yanaşmışdır. Yerli səhnəyə dünya klassiklərinin əsərləri gətirilir, ilbəil repertuar yenilənirdi; “Don Juan”, “Kapitan Qrantın uşaqları”, “Nel qülləsinin sirri”, “Yer ətrafına səyahət”, “Müfəttiş”, “Qaçaqlar”, “Tom dayının koması”, “Meşşan dvoryanlıqda”, “Vilhelm Tell”, “Ögey ana”, “Gülən adam”... Bu əsərlərin tərcümə edilməsininin təşəbbüsçülərindən biri də məhz Aleksandr Tuqanov idi.

Üçüncü yarımfəsil **“A.Tuqanovun şəxsi arxivi dövrün mədəni-ictimai palitrasının inikası kimi”** adlanır. Azərbaycanda arxiv işi və arxiv quruculuğu tarixi XX əsrin 20-ci illərindən başlanılmışdır. Bu bir əsrə yaxın prosesdə arxivlərdən ən çox Azərbaycan müstəqillik əldə etdikdən sonra yararlanmışdır. Çar dövründə və sovet dövründə ölkəmizin tarixinin, mədəniyyətinin təhrifi və həqiqətdən uzaq illüziya yaratmaq üçün arxivlər bağlı saxlanılırdı. Ona görə də müasir dövrdə həmin həqiqətlərin aşkarlanması arxivlərdə elmi-tədqiqatlara icazə verilməsi zəruri hal almışdır. 1996-cı ildən Baş Arxiv İdarəsi UNESCO yanında Beynəlxalq Arxiv Şurasına tam hüquqlu üzv qəbul edilmişdir. Bu gün həm Azərbaycan, həm də bütün dünya ölkələrindən olan tədqiqatçılar bu arxivlərdən ortaq mənbə kimi istifadə edərək həqiqət axtarışına çıxırlar.

Muzeylərdə işlənilməmiş olan arxivlərdən biri görkəmli rejissor Aleksandr Aleksandroviç Tuqanovun şəxsi arxividir. Tuqanovun şəxsi arxivi C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində, qismən də N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanılır. Bu arxiv Teatr Muzeyinə hissə-hissə 1954, 1969-cu və 1978-ci illərdə daxil olmuşdur. A.Tuqanovun həyatı, yaradıcılığı, Azərbaycan teatrı və səhnəsi üçün gördüyü işlər haqqında bizdə tam təsəvvür yaradan bu arxiv həm XX əsrin əvvəllərində Azərbaycan teatr mühitinin, həm də sonrakı inkişaf mərhələlərinin mənzərəsini canlandırır.

Arxivdə A.Tuqanovun bu muzeyin qurucularından və bilavasitə fond yaradıcılarından biri olduğu sübut olunur. Əvvəlcə bu fakta diqqət yetirək. Bu, teatr Muzeyinin direktoru Şərifovun 04 iyun 1938-ci il tarixində A.Tuqanova verdiyi arayışdır: “Azərbaycan SSR-nin Xalq artisti A.A.Tuqanova verilir ona

görə ki, o, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində elmi müşavir vəzifəsində çalışır”.[1]

Tuqanovla bağlı arxiv materialları bizə aşağıdakı dəqiq məlumatları sıralayır:

– Tuqanov Azərbaycan səhnəsində müasir mövzuda yazılmış ilk klassik operamızın baş rejissorudur.

– Azərbaycanda tərcümə əsərlərinin şərq üslubunda səhnəyə qoyulmasının təşəbbüskarıdır.

– Azərbaycan Dövlət Konservatoriyasında opera rejissoru kimi fəaliyyət göstərən ilk pedaqoqdur.

– SSRİ xalqlarının birinci olimpiadasında olimpiadanın münsif üzvü və təşkilat komitəsinin üzvü olmu°dur.

– 1936-cı ildə Azərbaycan səhnəsinin böyük qələbəsi “Maqbet” tamaşasına görə Azərbaycan SSR-nin Xalq artisti adı ilə təltif edilmişdir. Bu onu göstərir ki, Tuqanovun Azərbaycan teatrına qazandırdıqları birtərəfli olmamışdır.

– Teatr İnstitutu yarandığı gündən A.Tuqanov burada Aktyor ustalığı kafedrasında çalışmış, bu kafedranın müdiri olmuşdur.

– “Qırmızı Əmək Bayrağı”, “Şərəf nişanı” ordenləri, “Qafqazın müdafiəsinə görə” və “1941-1945-ci illər Böyük Vətən müharibəsi dövründə qəhrəman əmək üçün” medalları ilə təltif olunmuşdur.

A.Tuqanov 1923-cü ildə hələ Tiflisdə fəaliyyət göstərərkən 32 illik səhnə fəaliyyətindən sonra Respublikanın Əməkdar artisti fəxri adına layiq görülmüşdür. Yəni o, Azərbaycana gələndə artıq professional bir rejissor idi.

A.Tuqanovun rejissurasının özülünü haqqında heyranlıqla bəhs etdiyi və hər bir tamaşasına xüsusi resenziya yazdığı Şekspir əsərləri təşkil edir. O, Şeksprin beş dram əsərini səhnələşdirmişdir. Haqqında arxivdə ən çox məlumata rast gəlinənlər “Hamlet”, “Otello”, “Maqbet”, “Romeo və Cülyetta” pyesləridir. Əlbəttə, hələ A.Tuqanovdan əvvəl də Azərbaycan teatrı 1905-ci ildə Şekspir əsərlərinə müraciət edərək “Otello”nu səhnələşdirmişdilər. Lakin A.Tuqanovun quruluşu və bu əsərlərin yenidən Cəfər Cabbarlı, Hacıbaba Nəzərli, Əhməd Cavad kimi ədəbiyyatçılar tərəfindən tərcümə edilməsi əsərlərə təravət bəxş etmişdir. A.Tuqanov verdiyi quruluşlarda, hər şeydən əvvəl, əsərin orijinallığını qorumağa çalışmışdır. Onun qaydalarına görə, həm tərcümə, həm də quruluş orijinala yaxın olmalı idi.

Böyük teatr mədəniyyəti tələb edən Şekspirin “Maqbet” faciəsinin Azərbaycan teatrında nümayişi haqda V.Roqovski “Azərbaycan teatrının

[1] Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin arxivi: inv№4314.

böyük qələbəsi" adlı məqaləsində yazır: "Rejissor A.A.Tuqanov, rəssam M.M.Tixomirov, tərcüməçi H.Nəzərli və bütün aktyor kollektivi hələ deyilməmiş, vulqarizmdən uzaq Şekspir göstərə bildilər".[1]

Bu fəsildə Dissertasiya probleminin həllinə yönələn axtarışlar bir həqiqəti sübut edir ki, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin fondlarında saxlanılan orijinal sənədlər – arxiv materialları və Tuqanovun səhnədə yarada bildiyi realist üslubu kimi onun Azərbaycan peşəkar teatrının formalaşdırılması sahəsindəki çoxşaxəli əməyi də real bir həqiqətdir.

**Nəticədə** dissertasiyada irəli sürülən elmi müddəalar ümumiləşdirilir.

Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:

1.Bülbülün Azərbaycan musiqi folklorunun toplanmasındakı fəaliyyəti. Dədə Qorqud, 2013, III (48), Bakı 2013, s.116-123.

2. XX əsrin ədəbi-mədəni mənzərəsinin formalaşmasında Heydər Əliyevin rolu. Azərbaycanşünaslığın aktual problemləri mövzusunda V Beynəlxalq Elmi konfransın materialları. Bakı, 05-07 may 2014, s.271-272.
3. XX əsr Azərbaycan mədəniyyət memarlığında sintezlər. 15-16-17 mayıs 2014, VIII. Uluslararası türk kültürü, sanatı ve kültürel mirası koruma sempozyumu/sanat etkinlikleri. Konya-Türkiye/10 şubat 2016.
4. Professor Bülbülün elmi araşdırmaları Azərbaycan musiqişünaslığı kontekstində. Musiqi dünyası. 3/64, Bakı, 2015, s.76-80.
5. Müslüm Maqomayevin şəxsi arxivi XX əsr mədəni-ictimai gerçəkliyi kontekstində. Musiqi dünyası. 4/64, Bakı, 2015, s.74-77.
6. Bülbülün Memorial Muzeyinin arxivi Bülbülün musiqi folkloru sahəsindəki fəaliyyətinin əsas qaynağı kimi. Qobustan.4, Bakı, 2015, s.61-63
7. A.A.Tuqanovun şəxsi arxiv materiallarında Cəfər Cabbarlı fenomeni. Mədəniyyət dünyası. Bakı, 2016 (çapdadır).

[1] Раговской В. Большая победа тюркского театра. «Заря востока».23.03.1936

***L.E.ATAKAN***

## THE ROLE OF MUSEUM PRIVATE ARCHIVES IN PERCEPTION OF THE LITERARY AND CULTURAL VIEW OF XX CENTURY


### SUMMARY

The dissertasion is dedicated to the role of museum private archives in perception of the literary and cultural view of XX century. Private archives forms State archive repository, and also the main part of museum repository. In the dissertation we catch the archives of M.Magomaev, Bulbul and A.Tuganov in the context of museology as scientefic innovation. The major sources are the materials and the documents wich are under preservation in the perceptions of The National Museum of Literature named after Nizami Ganjavi, Azerbaijan Theater Museum named after Jafar Jabbarli, The Institute of Manuscripts named after Muahmmed Fuzuli.

In the introduction of the dissertasion work the actuality of the theme, aims and newness of the investigation work, methods and sources, theoretical and practical importance are explained. The dissertation work consists of the introduction, three chapters, the conclusion, and the list of the used literature. Each chapter devides into some semi-chapters.

The first chapter is called “The private archive of Muslim Magomaev in the context of social literary life XX century”. The importance of museum and archive work are marked, Muslim Magomaev’s private archive materials, also the articles which are published in the press and correspondences are investigated in this chapter.

The second chapter is called “The reflection issues in social cultural reality of the period according to the materials of Bulbul’s private archive”. Here are analyzed scientefic, cultural, and social activity of Bulbul on the basis of museum exhibits, documentary monuments which are protected in the Memorial Museum of Bulbul.

The third chapter is called “The private archive of A.A.Tuganov, and Azerbaijan theater culture in XX century”. In this chapter is said abaut the new stage of development in Azerbaijan theater art, and the influence of A.Tuganov to this stage.

In the conclusion the results of the investigation are generalized.

*Л.Э.Атакан*

**РОЛЬ МУЗЕЕВ ЛИЧНЫХ АРХИВОВ В ВОСПРИЯТИИ ЛИТЕРАТУРНОЙ И КУЛЬТУРНОЙ КАРТИНЫ ХХ ВЕКА**

**РЕЗЮМЕ**

Диссертация посвящена роли личных архивов музеев в восприятии литературной и культурной картины XX века. Личные архивы составляют основную часть Государственного архивного фонда и музейного фонда. В диссертации в качестве научной инновации в научном контексте архивного музееведения к исследованию привлечены личные архивы Муслима Магомаева, Бюль-Бюля и Александра Туганова.

Основными источниками являются документы и материалы фондов Национального Азербайджанского Литературного Музея имени Низами Гянджеви, Государственного Азербайджанского Театрального музея имени Джафара Джаббарлы, Института рукописей имени Махаммеда Физули и Мемориального Музея Бюль-Бюля.

Вступительная часть основывается на актуальности темы, степени изучения проблемы, целях и задачах диссертации, научном новшестве исследования, методах и источниках исследования, теоретическом и практическом значении.

Диссертация состоит из введения, трех глав, заключения и списка литературы. Каждая глава делится на специальные разделы.

Первая глава называется «Личный архив Муслима Магомаева в контексте культурно-общественной реальности XX века». В данной главе подчеркивается значимость работы музея и архивов, личные архивные материалы Муслима Магомаева, в том числе статьи и переписки, опубликованные в прессе того времени, исследуются в контексте музееведения.

Вторая глава называется «Отражение общественно-культурной реальности в материалах личного архива Бюль-Бюля». В данной главе научная, культурная и общественная деятельность Бюль-Бюля анализируется на основе музейных предметов, документальных памятников, собранных в Мемориальном Музее Бюль-Бюля.

Третья глава называется «Личный архив А.А. Туганова и театральная культура Азербайджана XX века». В данной главе на основе личного архива Александра Туганова находит свое отражение новая ступень развития искусства Азербайджанского театра и влияние А.Туганова на данную ступень.

В заключении обобщены важнейшие результаты исследования.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ УНИВЕРСИТЕТ**
**КУЛЬТУРЫ И ИСКУССТВА**

*На правах рукописи*

**ЛАЛА ЭЛДАР кызы АТАКАН**

# РОЛЬ МУЗЕЕВ ЛИЧНЫХ АРХИВОВ В ВОСПРИЯТИИ ЛИТЕРАТУРНОЙ И КУЛЬТУРНОЙ КАРТИНЫ XX ВЕКА

**6220.01 − Музееведение**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по искусствоведению**

**БАКУ – 2016**